# Ürəyini sənətə, övladını Vətənə qurban verib

**Keçən əsrin 50-60-cı illərində kolxoz təsərrüfatı sürətlə inkişaf edirdi. Taxılçılıq, pambıqçılıq, heyvandarlıq və təsərrüfatın digər sahələrində əmək qabaqcılları meydana çıxırdı. Onlardan biri də Salyan rayonunun Sarvan kəndindən olan Qüdrət Səmədov idi.**

O, pambıq yığımında fərqləndiyinə görə ad çıxarmışdı. Səsi-sorağı hər tərəfə yayılmışdı. "Lenin" ordeni ilə təltif olunmuş, Sosialist Əməyi Qəhrəmanı kimi yüksək fəxri ada layiq görülmüşdü. Çox çəkmədi ki, onu kolxoz sədri vəzifəsinə irəli çəkdilər. Daha sonra SSRİ Ali Sovetinin deputatı oldu. Aylar, illər keçdikcə şan-şöhrəti daha da artdı. Onun belə qəhrəmanlığı, ad-san qazanması orta məktəbin 8-ci sinfində oxuyarkən məni də çox təsirləndirmişdi. İlk qələm təcrübələrimdən biri və məktəbin divar qəzetində çıxan ilk şeirim də elə onun haqqında idi:

*Sən Muğanda ağ günlərə ilk yol açdın, Qüdrət əmi!*
*Ağ günlərdə günəş kimi şəfəq saçdın, Qüdrət əmi!*
*Ağ pambıqdan gör nə qədər sən tayalar ucaltmısan!*
*Ağ tayalar ucaldıqca sən özün də ucalmısan.*
*Kim bilərdi, Sarvanının keçmişi nə, indisi nə?*
*Doğma kəndin əməlinlə bu gün batıb toy-düyünə.*
*Şerimin də sətirləri şöhrətindən ilham alır.*
*İnsan oğlu bu hünərə, bu qeyrətə heyran qalır.*
*Yaratdığın ağ günlərdə ürək coşur, Qüdrət əmi!*
*Körpə-körpə nəvələrin pərvazlaşır, Qüdrət əmi.*

Eşitmişəm ki, o zaman Xalq yazıçısı Mirzə İbrahimov bir neçə dəfə Sarvan kəndinə gəlib, Qüdrət Səmədovla görüşüb, onun qonağı olub. Deyirlər, ədibin "Böyük dayaq" romanındakı Rüstəm kişi obrazı da Qüdrət Səmədovun prototipidir. Bir müddət keçəndən sonra "Böyük dayaq" filmi çəkildi. Kinodakı personajlar, baş verən hadisələr, Q. Səmədovun sədr olduğu "Nizami" adına kolxozun həyatını bədii şəkildə əks etdirən bu film tamaşaçılar, o sıradan Sarvan kənd sakinləri tərəfindən böyük rəğbətlə qarşılanmışdı. Filmdəki Qaraş rolunda Q.Səmədovun doğma bacısı oğlu, sonralar Azərbaycanın Xalq artisti olan istedadlı aktyor Həsən Məmmədov çəkilmişdi. Yəqin hamı bilir ki, Qaraş H.Məmmədovun ilk rolu idi.

Qaraş adı sarvanlılar üçün daha bir cəhəti ilə doğma və yaxın idi. Qaraşovlar Sarvan kəndində məşhur bir nəsildir. Nəslin qız övladı Heyvanisə xanım Qüdrət Səmədovun həyat yoldaşı, kənd camaatının sevimlisi idi. Bu nəslin daha bir layiqli nümayəndəsi - Heyvanisə xanımın doğmaca qardaşı Bahadur kişinin oğlu Cahangir Qaraşovdur. O Cahangir Qaraşov ki, hələ orta məktəbdə oxuduğu zaman "Böyük dayaq" filminə təkrar-təkrar baxar, baxmaqdan da doymazdı. Arzu edərdi ki, gələcəkdə qohumu Həsən Məmmədov kimi aktyor olsun. Bu niyyətlə də 7-ci sinfi bitirib Bakıya gedir. Seçdiyi peşə üzrə əvvəl orta ixtisas, sonra da ali təhsil alır. İstedadı ilə ona dərs deyən müəllimlərin diqqətini çəkdiyi üçün təhsil ala-ala Akademik Dram Teatrında işləyir, epizodik rollarda oynayır. Hökumə xanım Qurbanova, Mövsüm Sənani, Ağadadaş Qurbanov, Leyla xanım Bədirbəyli, Lütfi Məmmədbəyov, Əliağa Ağayev kimi müqtədir sənətkarları görüb tanış olur. Dublyor olaraq bir çox tamaşalarda iştirak edir.

Ata-anasının səhhətini nəzərə alaraq C.Qaraşov 1965-ci ildə Sarvan kəndinə qayıdır. Salyan Rayon Mədəniyyət şöbəsində işə başlayır. Lakin paytaxtla əlaqəsini kəsmir. Rejissor Rauf Kazımovskinin 1966-cı ildə çəkdiyi "Poçt qutusu" filmində epizodik rollardan birində çəkilir.



1972-ci ildə C.Qaraşov Salyan Rayon Mədəniyyət Evində fəaliyyət göstərən dram dərnəyinin rejissoru təyin edilir. 1973-cü ildə isə onun şəxsi təşəbbüsü ilə rayonlar arasında ilk dəfə olaraq Salyanda kukla dram dərnəyi yaradılır. 1975-ci ildə həmin dərnək Dövlət Kukla Teatrına çevrilir.

Cahangir Qaraşov təkcə teatrda deyil, rayon mədəniyyət şöbəsinin əhatə etdiyi bütün tədbirlərdə yaxından iştirak etmiş, bilik və bacarığını əsirgəməmişdir. 1980-ci ildə Salyan Mədəniyyət evinin nəzdində fəaliyyət göstərən "Cəngi" kollektivinin tərkibində Özbəkistanda, 1981-ci ildə dünya folklor qruplarının baxış müsabiqəsində İspaniyada, həmin il keçirilən uşaq kukla teatrlarının festivalında Çexoslovakiyada münsiflər heyətində yer alaraq Azərbaycanı təmsil etmişdir.

Onun rollar qalereyası da zəngin olmuşdur. "Bəxtsiz cavan"da Fərhad, "O olmasın, bu olsun"da Məşədi İbad, "13 nömrəli aptek"də həkim və oynadığı digər rollar tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

Çəkdiyi zəhmət hədər getməmişdir. C.Qaraşov 1986-cı ildə SSRİ Mədəniyyət Nazirliyi tərəfindən "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur. Respublikamız müstəqillik əldə etdikdən sonra isə "Fəxri mədəniyyət işçisi", "Əməkdar mədəniyyət işçisi" fəxri adlarına layiq görülmüşdür.

Cahangir Qaraşov nümunəvi ailə başçısıdır. Övladlarını vətənə, xalqa layiq böyüdən sənət adamının oğlu Nail Qaraşov Birinci Qarabağ savaşında şəhid olmuşdur. Sarvan əhalisi igid balasını böyük hörmət və ehtiramla doğulub boya-başa çatdığı yurdunda - Sarvan kənd qəbiristanlığında torpağa tapşırmışdır. Kənd camaatı, məktəb şagirdləri igid əsgərin məzarını həmişə ziyarət edir, onun məzarı üstünə tər çiçək dəstələri düzürlər. Kəndin Naildən başqa da neçə-neçə şəhid övladı var. Mən şeirlərimdən birində bu oğullar haqqında yazmışam:

*Siz yazdınız millətin tarixini qan ilə.*
*Sinənizdə yurd saldı yurda atılan güllə.*
*Məzarınız tutulub min çələngə, min gülə.*
*Tərsiniz çiçək kimi, həmişə baharsınız!*
*Azərbaycan köksündə həmişə yaşarsınız!*

Ürəyini sənətə, övladını Vətənə qurban verən Cahangir kişi elin ağsaqqalı kimi böyük hörmət sahibidir. Bu yaxınlarda Salyan ictimaiyyəti, Sarvan kənd camaatı Cahangir Qaraşovun doğum gününü təntənə ilə qeyd etdi. 80 illik ömrünü sənətə, ürək parası oğlunu Vətənə qurban verən Cahangir kişi bu təntənəyə, bu diqqətə layiqdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 20 may (№103).- S. 10.